AÇILIŞ YOXLAMA SİYAHISI

Özəl bağça açmazdan əvvəl: hüquqi, bina, kadr, pul və satış.

Yoxlama tarixi: **11 noyabr 2026**. Bu siyahı Azərbaycanda özəl məktəbəqədər təhsil müəssisəsi açmaq üçün rəsmi sənədlərdən yığılıb. **Hüquqi məsləhət deyil.** Qərar verməzdən əvvəl Təhsil Nazirliyi (qaynar xətt 146) və hüquqşünasla yoxlayın.

HÜQUQİ VƏ SƏNƏDLƏR

- [ ] Təsisçi müəyyən edilib (fiziki və ya hüquqi şəxs ola bilər). RƏSMİ
  Qanun, mad. 12.1
- [ ] Nizamnamə hazırlanıb və Təhsil Nazirliyinin rəyi alınıb. RƏSMİ
  Nizamnamə, bənd 6.11
- [ ] Hüquqi şəxs dövlət qeydiyyatına alınıb və vergi uçotuna durub. RƏSMİ
  Nizamnamə, bənd 1.7; Reqlament, bənd 2.6.2–2.6.3
- [ ] Obyekt üzərində istifadə hüququ sənədi var (mülkiyyət və ya icarə). RƏSMİ
  Reqlament, bənd 2.6.4
- [ ] Lisenziya müraciəti üçün pedaqoji heyət və maddi-texniki baza haqqında məlumat hazırdır. RƏSMİ
  Reqlament, bənd 2.6.6–2.6.7
- [ ] Lisenziya üçün cari dövrdəki dövlət rüsumu ödənilib. RƏSMİ
  Reqlament, bənd 2.2; ASAN
- [ ] Hər uşaq üçün valideynlə müqavilə forması hazırdır. RƏSMİ
  Qanun, mad. 11.11; Nizamnamə, bənd 3.7

BİNA VƏ ŞƏRAİT

- [ ] Qrup planı hazırdır: yaş qrupları və hər qrupda maksimum uşaq sayı (1–3 yaş 15, 3–6 yaş 20; müxtəlifyaşlı qruplarda 10 və 15). RƏSMİ
  Nizamnamə, bənd 3.2
- [ ] Binanın ümumi və tədris sahəsi, otaqların sayı, mətbəx, sanitar qovşağı və həkim otağı üzrə məlumat toplanıb. RƏSMİ
  Reqlament, bənd 2.6.7
- [ ] Binanı və həyətyanı sahəni avadanlıqla təmin etmək təsisçinin məsuliyyətidir. Büdcəyə daxil edilib. RƏSMİ
  Nizamnamə, bənd 6.34–6.35
- [ ] Yanğın təhlükəsizliyi və sanitar tələbləri müvafiq dövlət qurumlarından yazılı öyrənilib (Nizamnamədə konkret norma yoxdur). İcarə müqaviləsindən əvvəl yoxlayın. TÖVSİYƏ
  Mənim tövsiyəm

- [ ] Qidalanma planı hazırdır (gündə 3, 4 və ya daha çox dəfə). RƏSMİ
  Nizamnamə, bənd 3.17–3.18

KADR

- [ ] Müdirin ali ixtisas və ya ali pedaqoji təhsili və təhsil sahəsində təcrübəsi var. Müdiri təsisçi təyin edir. RƏSMİ
  Qanun, mad. 15.2; Nizamnamə, bənd 6.5
- [ ] Tərbiyəçi-müəllimlərin məktəbəqədər təhsil üzrə ali və ya orta ixtisas təhsili var. RƏSMİ
  Qanun, mad. 1.0.21
- [ ] Metodist və loqopedin ali pedaqoji təhsili var. RƏSMİ
  Qanun, mad. 1.0.8, 1.0.16
- [ ] İşçilərin ildə ən azı 2 dəfə tibbi müayinəsi planlaşdırılıb. Xərci təsisçi ödəyir. RƏSMİ
  Nizamnamə, bənd 3.15

PUL VƏ SATIŞ

- [ ] Başa-baş nöqtəsi hesablanıb: neçə uşaqdan sonra bağça xərci örtür. TÖVSİYƏ
  kenanzarbiyev.com/basa-bas
- [ ] Sorğu, baxış və qeydiyyat sayı hər ay yazılacaq. TÖVSİYƏ
  kenanzarbiyev.com/huni
- [ ] İlk mesaj və qiymət sualına cavab yazılıb. TÖVSİYƏ
  Mənim tövsiyəm
- [ ] Baxış marşrutu və hər iddia üçün sübut hazırdır. TÖVSİYƏ
  Mənim tövsiyəm
- [ ] Instagram, WhatsApp Business və Google Maps profilləri açılışdan əvvəl hazırdır. TÖVSİYƏ
  Mənim tövsiyəm
- [ ] Dövlət dəstəyi müsabiqəsi izlənir: iştirak üçün məktəbəqədər təhsil lisenziyası lazımdır. RƏSMİ
  Təhsil Nazirliyi (2026)

MƏNBƏLƏR

Qanun: Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (14 aprel 2017)

Nizamnamə: Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi (Nazirlər Kabineti, 2 oktyabr 2012, № 218)

Reqlament: Təhsil müəssisələrinə lisenziyaların verilməsi üçün inzibati reqlament (Təhsil Nazirliyi, 6 noyabr 2014)

Hüquqi hissə sənədlə həll olunur. Doluluq isə açılışdan əvvəl qurulan satış sistemi ilə.
kenanzarbiyev.com/bagca-acmaq